## *2020-ci il üzrə ölkəmizin makroiqtisadi inkişafı*

Ötən ilin əvvəllərində ölkədə iqtisadi artım müşahidə edilsə də, dünyada koronavirus pandemiyasının geniş yayılması dünya ölkələrinin iqtisadiyyatına ciddi təsir göstərməklə yanaşı, ölkə iqtisadiyyatına da təsirsiz ötüşməmişdir.

Pandemiyanın təsirlərinin ölkə ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət qərargah yaradılmış və bu istiqamətdə zəruri tənzimləyici tədbirlər həyata keçirilmişdir.

Pandemiyanın və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların iqtisadiyyata, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı tədbirlərin görülməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən, iş yerlərinin və sosial sabitliyin qorunması, iqtisadi şəffaflığın artırılması, işgüzar fəallığın qorunmasına vergi stimullarının verilməsi, iqtisadiyyata və sahibkarlığa dövlətin kredit-zəmanət dəstəyinin verilməsi, güzəştli şərtlərlə kredit resurslarına çıxış imkanının genişləndirilməsi və post-pandemiya dövründə iqtisadi artımın yeni modelinin tətbiqi istiqamətində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuş və hazırda icrası davam etdirilir.

Eyni zamanda, pandemiya səbəbi ilə ölkə iqtisadiyyatına və sahibkarlara dəyən zərərin minimuma endirilməsi məqsədilə Azərbaycan Respublikasının Vergi Məcəlləsində müvafiq dəyişiklik edilərək 1 yanvar 2020-ci il tarixdən bir il müddətinə olan dövr ərzində, pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə əmlak və torpaq vergisi üzrə müddətli azadolmalar verilmiş, əldə edilən mənfəətin 75 faizi miqdarında vergi güzəştləri tətbiq edilmiş və digər vergi güzəştləri verilmişdir.

Həyata keçirilən kompleks tədbirlər pandemiyanın sahibkarlığın inkişafına və əhalinin həyat səviyyəsinə təsirinin minimum səviyyəyə endirilməsinə, iqtisadiyyatımızın sürətli geriləməsinin qarşısını almağa imkan vermiş və nəticədə ÜDM 2020-ci il ərzində 2019-cu ilə nisbətən 4.3 faiz azalmışdır.

Geriləməyə əsas səbəb OPEC+ ölkələri üzrə hasilatın azaldılması barədə öhdəliklərin ölkəmiz tərəfindən tam icra edilməsi olmuş və nəticədə neft-qaz sektoru üzrə 2020-ci ilin yanvar-dekabr aylarında 2019-ci ilin müvafiq dövrünə nisbətən 7.0% azalma qeydə alınmışdır. Bu sektorun ÜDM-də xüsusi çəkisi 29.9% olmuşdur.

ÜDM-in qeyri-neft sektoru isə 2020-ci ilin yanvar-dekabr aylarında ötən ilin müvafiq dövrünə nisbətən real ifadədə cəmi 2.6% azalmışdır (2019-ci ilin yanvar-dekabr aylarında 3.5% artmışdır). Həmin dövr ərzində qeyri-neft sənayesi 12.2%, informasiya və rabitə sahəsi 0.6%, kənd təsərrüfatı 1.9%, nəqliyyat və anbar təsərrüfatı 4.6% artmışdır.

Pandemiya ölkə iqtisadiyyatında ən çox turizm sektoruna mənfi təsir göstərmiş və nəticədə cari ilin yanvar-sentyabr aylarında turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsi üzrə 58.9 faiz azalma qeydə alınmışdır.

Ölkədə inflyasiyanın faktiki səviyyəsinin və qiymət artımı gözləntilərinin aşağı olaraq qalması hazırki dövrdə makroiqtisadi sabitliyin qorunub saxlanmasını şərtləndirən əsas amillərdən olmuşdur.




***Qrafik 1. Əvvəlki ilin müvafiq dövrünə nisbətən neft və qeyri-neft sektorunun real artım tempi, %***

2020-ci ilin yanvar-dekabr aylarında ölkədə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17028.1 milyon manat investisiya yönəldilmişdir.




***Qrafik 2. Əsas kapitala cəmi investisiyaların real artım tempi, %-lə***

Əsas kapitala qoyulmuş vəsaitin 69.9%-ni daxili investisiyalar, 30.1%-ni isə xarici investisiyalar təşkil etmişdir. Müvafiq dövrdə əsas kapitala yönəldilmiş ümumi investisiyaların 11148.4 milyon manatı (65.5%-i) qeyri-neft bölməsinin, 5879.7 milyon manatı (34.5%-i) isə neft bölməsinin inkişafında istifadə edilmişdir.




***Qrafik 3. İqtisadiyyata kredit qoyuluşları, dövrün sonuna mln. AZN***




***Qrafik 4. Əhalinin əmanətləri, dövrün sonuna, mln. AZN***

2020-ci ilin yanvar-dekabr aylarında əhaliyə istehlak bazarında satılmış məhsulların və göstərilmiş xidmətlərin ümumi həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 8.1% azalaraq

47.9 milyard manata bərabər olmuşdur. Pərakəndə ticarət dövriyyəsi 2019-ci ilin müvafiq dövrü ilə müqayisədə 1.3% azalmış, əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi isə 27.9% azalmışdır.

2020-ci ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əmək haqları əvvəlki ilin eyni dövrü ilə müqayisədə 12.9% artaraq 703.5 manat təşkil etmişdir.